# Factors, non-invasive factors

**Telli Jabbarova**
Doctoral student, Ganja State University. Azerbaijan.
E-mail: ziyacabbarli@mail.ru
https://orcid.org/0000-0002-5881-2031

**Abstract.** The article examines factors affecting cognitive development in the course of action. As a result of the study, it was revealed that the internal cognitive potential is developing under the influence of external factors. From this point of view, we cannot agree with the fact that Jean-Piaget completely rejects the nativistic and empirical theories, which suggest that cognitive functions are acquired by virtue and experience. Because the process of cognitive development cannot be determined only by one-dimensional parameters. External factors play a great role in the realization of genetic potential. An individual's interest and aspiration is one of the most important factors in regulating and developing the cognitive development process. Among the external factors, the verbal communication between parents and children plays an important role in the family.

**Purpose**: is a factor that factorization avoids, which does not cause cognitive impairment in the process.

**Methodology**: consists of theories and experiments on the interaction of cognitive and emotional factors in emotional intelligence.

**Scientific novelty:** is an internal potential that evolves into emerging factors.

**Keywords:** cognitive, emotional, process self-knowledge, individual, object, subject, personality.

http://dx.doi.org/10.29228/edu.256

**To cite this article:** Jabbarova T. (2020) *Factors, non-invasive factors.* «Scientific work», Vol. 34, Issue I, pp. 147-153.

**Article history:** Received – 22.09.2020; Accepted – 17.10.2020

# Koqnitiv inkişafa təsir edən amillər

**Telli Cabbarova**
Doktorant, Gəncə Dövlət Universiteti. Azərbaycan.
E-mail: ziyacabbarli@mail.ru
https://orcid.org/0000-0002-5881-2031

**Annotasiya.** Məqalədə fəaliyyət prosesində koqnitiv inkişafa təsir edən amillər araşdırılır. Araşdırma nəticəsində məlum olmuşdur ki, daxili koqnitiv potensial xarici amillərin təsiri ilə üzə çıxaraq inkişaf edir. Bu baxımdan, Jan Piajenin koqnitiv funksiyaların fitri və təcrübə ilə əldə edildiyini irəli sürən nativist və empirik nəzəriyyələri tamamilə təkzib etməsini məqbul hesab edə bilmərik. Çünki koqnitiv inkişaf prosesini yalnız birölçülü parametrlərlə müəyyənləşdirmək mümkün deyildir. Həmçinin genetik potensialın reallaşmasında xarici amillərin rolu böyükdür. Fərdin özünün maraq və cəhdi koqnitiv inkişaf prosesini tənzimləyən və inkişaf etdirən

mühüm amillərdən biridir. Xarici amillər arasında ailədə valideynlərin uşaqlarla verbal ünsiyyəti mühüm yer tutur.
**Məqsəd**: fəaliyyət prosesində koqnitiv inkişafa təsir edən amilləri müəyyənləşdirməkdir.
**Metodologiya:** koqnitiv və emosional amillərin qarşılıqlı əlaqəsindən bəhs edən, emosional intellekt ilə bağlı nəzəriyyələr və eksperimentlərdən ibarətdir.
**Elmi yenilik:** daxili koqnitiv potensial xarici amillərin təsiri ilə üzə çıxaraq inkişaf edir.
**Açar sözlər**: koqnitiv, emosional, özünüdərk prosesi, fərd, obyekt, subyekt, şəxsiyyət.

http://dx.doi.org/10.29228/edu.256
**Məqaləyə istinad:** Cabbarova T. (2020) *Koqnitiv inkişafa təsir edən amillər*. «Elmi əsərlər», № 1 (34), səh. 147-153.
**Məqalə tarixçəsi:** göndərilib –15.04.2020; qəbul edilib – 22.04.2020

## Giriş / *Introduction*

Koqnitiv inkişaf ilə nəzəriyyələrin tədqiqi göstərir ki, bu sahədə öz həllini gözləyən bir çox məsələlər vardır. Çünki Piaje ilə Vıqotskinin yanaşmaları bir-birinə zidd olduğu kimi, neopiajistlər məktəbinin daxilində də ziddiyyətlər mövcuddur. Paskual-Leon koqnitiv inkişaf mərhələlərini təkzib edirsə, Keys onların varlığını dəstəkləyir. Paskual-Leon və Keys koqnitiv inkişaf sahələrinin eyni qanunauyğunluqlarla idarə olunduğunu, Demetriu onların hər sahədə fərqli səviyyədə olduğunu irəli sürürlər. Bunlar bir daha təsdiq edir ki, elmlərin inkişaf etməsi üçün fənlərarası əlaqənin genişləndirilməsinə ehtiyac vardır.

Beyinin inkişafı ilə təfəkkürün inkişafı arasında müəyyən əlaqə vardır. Koqnitiv inkişaf mərhələsi 2 yaşınadək sinapsın (iki neyronun birləşmə nöqtəsi) formalaşmasından sonra baş verir. Nitq beyinin sol yarımkürəsində lokallaşır. Ətraf mühitdən əldə olunan informasiyalar tədricən beyinin müxtəlif hissələrində yer alır. Maraqlıdır ki, koqnitiv inkişafı təmin edən sinapsların yarısı əksər hallarda 16 yaşında yoxa çıxır. Bunun səbəbini ətraf mühitin təsiri ilə bağlayırlar. Ətraf mühitin koqnitiv inkişafa müsbət və ya mənfi təsir göstərməsi eksperimentlərlə təsdiq olunur. Məsələn, uşaqların yaşlı zəkalı insanlarla mütəmadi ünsiyyətdə olması onların koqnitiv inkişaf səviyyəsini yüksəldir. Yaxud uşaqların səviyyəli ailədə yaxşı təlim və tərbiyə görməsi, onu əhatə edən mədəni mühitin intellektual olması iş həyatının, yaxşı qidalanmağın və ətrafdan pozitiv emosional dəstəyin olması koqnitiv inkişafa müsbət təsir göstərir. Təbii ki, bunun əksi, ona mənfi təsir edir.

## Əsas hissə / *Main Part*

### Jan Piaje və onun tərəfdarlarının koqnitiv inkişaf ilə bağlı görüşləri

İsveçrə psixoloqu Jan Piaje tərəfindən irəli sürülən epistemoloji-konstruktiv koqnitiv inkişaf nəzəriyyəsi zəkanı bioloji təkamül prosesinin ayrılmaz hissəsi hesab edir. Bu nəzəriyyəyə görə, şüur ətraf mühitlə əlaqədə bir neçə inkişaf mərhələsi keçir. İnsan ətraf mühitdə öz fəaliyyəti ilə koqnitiv imkanlarını müstəqil şəkildə formalaşdırıb inkişaf etdirir. Ona görə, zəkanın inkişafı adaptasiya və təşkilolunma ilə bağlıdır. Müəyyən bir struktura malik olan zəka ətraf aləmdən aldığı informasiya və obrazları assimilyasiya və akkomodasiya etmək yolu ilə zəka strukturuna adaptasiya edir və ondan fikir formalaşdırır. Lakin bu təşkilolunma prosesi mürəkkəb inteqrativ bir struktura malikdir. Onun ən sadə forması sxemdir. Körpələr sxematik zəka strukturu vasitəsilə ətraf aləmi mənimsəyib ona reaksiya verirlər. Tədricən inteqrativ proseslər zənginləşdikcə, zəkanın ilkin strukturu da daha

mürəkkəb xarakter alır. Onun bu nəzəriyyəsi koqnitiv funksiyaların fitri və təcrübə ilə əldə edildiyini irəli sürən nativist və empirik nəzəriyyələrə ziddir [9, 286].

Biheviorizm nəzəriyyəsinin tərəfdarları koqnitin inkişaf prosesində təlim-tərbiyənin önəmini xüsusi vurğulayır və fitri potensial amilini təkzib edirlər. J. Piaje onlara qarşı çıxaraq bildirir ki, uşaqlar aldıqları bilikləri artıq öz şəxsi təcrübələri vasitəsilə formalaşdırdıqları biliklərə uyğunlaşdırırlar. Ona görə, koqnitin inkişaf prosesində təlim-tərbiyə deyil, şəxsi təcrübə əsasında formalaşan biliklər mühüm rol oynayır.

Jan Piaje sosial çərçivədə koqnitiv inkişaf mərhələlərini aşağıdakı kimi səciyyələndirir:

1. Hiss-mühərrik mərhələsi (2 yaşadək) – Bu mərhələdə özünü ətrafdakı predmetlərdən fərqləndirir və özünü müstəqil fəaliyyət sahibi kimi dərk edir (məsələn, körpə oyuncağı hərəkətə gətirmək üçün onun ipini çəkmək lazım gəldiyini və bunu etmək iqtidarında olduğunu bilir).

2. Əməliyyatöncəsi mərhələsi (2-7 yaşarası) – Bu mərhələdə nitq qabiliyyəti formalaşır və predmetləri sözlərlə, obrazlarla ifadə edir. Eqosentrik olduğu üçün digərlərinin sözlərini çətinliklə qəbul edir. Obyektləri bir əlamətə görə təsnif edir (məsələn, müxtəlif rəngə, növə, ətirə və formaya malik olan gülləri rənglərinə və ya başqa əlamətlərindən birinə görə təsnif edir).

3. Konkret əməliyyat mərhələsi (7-11 yaşarası) – Bu mərhələdə obyekt və hadisələr barədə məntiqi nəticə çıxarmaq imkanları formalaşır. O, kəmiyyəti (6 yaş), həcmi (7 yaş) və kütləni (9 yaş) qorumaq imkanlarına sahib olur. Obyektlərin bir neçə əlamətə görə təsnifatını aparır.

4. Formal əməliyyatlar mərhələsi (11-15 yaşarası və daha yuxarı) – Bu mərhələdə mücərrəd hökmlər barədə məntiqi nəticələr çıxarır və fərziyyələri sistemli şəkildə araşdırır. Fərziyyələr, ideoloji problemlər, gələcək ilə bağlı məsələlər onu maraqlandırır [6, s. 351-353].

Fərqli psixoloqların araşdırmalarının nəticələrinə görə, koqnitiv inkişaf amillərinin sonrakı mərhələləri aşağıdakı kimi səciyyələndirilir:

5. Nailiyyət mərhələsi (20-40 yaşarası) – Bu mərhələdə zəka fərdin gələcək həyatını müəyyənləşdirən real problemlərin (ixtisas seçimi, iş seçimi, evlilik) həllinə yönəlir.

6. Sosial vəzifələrin yerinə yetirilməsi mərhələsi (40-60 yaşarası) – Bu mərhələdə zəka digər insanların taleyini müəyyənləşdirən məsuliyyətli qərarlar verir.

7. Reinteqrasiya mərhələsi (60 və daha yuxarı) – Bu mərhələdə zəka əldə etdiyi bilik və təcrübələri digər nəsilə ötürərək yeni təkamül mərhələsinə daxil olur [7, 122].

Yuxarıda təqdim olunan koqnitiv inkişaf mərhələləri mütləq deyil, orta statistik xarakter daşıyır. O, fərdlərə və mühitə görə dəyişir. Çünki fərdlərdə koqnitiv inkişaf yaşından tez və ya gec mərhələləri əhatə edə bilər. Burada bəzi genetik və fitri amillərin də öz rolu vardır. Lakin koqnitiv inkişafa təsir mühüm amillərdən biri də mühitdir. Yəni "ağır həyat şəraiti" (stress, münaqişələr, kədər, tənhalıq, ailə və iş həyatında uğursuzluqlar və s.) koqnitiv inkişafa mənfi, "yüksək həyat şəraiti" (stress və münaqişələrdən uzaq sağlam həyat tərzi sürmək, daima dostlar və qohumlar ilə pozitiv ünsiyyətdə olmaq, ailə və iş həyatından zövq almaq, səviyyəli təlim-tərbiyə prosesi və s.) müsbət təsir göstərir.

Koqnitiv inkişafa mənfi təsir göstərən amillərdən biri də zəkanın yeni və fərqli biliklər əldə etməyə qapalı olmasıdır. Çünki zəka əldə etdiyi bilik və təcrübələr ilə kristallaşır və fərqli informasiyaları qəbul etməkdən imtina edir. Adətən bu durum özünü yaşlı nəsildə daha qabarıq şəkildə büruzə verir. İnsanın qocaldıqca zəkasının zəifləməsi ilə bağlı iddialar da bununla bağlıdır. Lonqitüd metodu vasitəsilə yüksək zəkalı insanlar üzərində aparılan araşdırmalar göstərir ki, onlarda koqnitiv inkişaf prosesi 18-50 yaşarası sürətlə irəliləyir və 60 yaşdan başlayaraq çox cüzi indekslə aşağıya enir [8, 195-196]. Bu, adətən təhsil alan və daima mütaliə edən, həmçinin yeni biliklərə açıq olan insanlarda müşahidə olunur. Yəni onların zəkası daima öz dinamikliyini, alternativliyini, variativliyini qoruyan metakoqnitiv-inteqrativ xarakter daşıyır. Metakoqnitiv inteqrativ proseslərə idrak prosesinin dəyərlər vasitəsilə tənzimlənməsi, özünüdərkin yüksək olması, özünə refleksiv yanaşmaq, fərdi təcrübənin özünəməxsus quruluşu, məlum olmayan və mümkün hadisələrə meyil, sualvermə qabiliyyəti, problemləri görmək qabiliyyəti və digər xüsusiyyətlər aiddir.

Koqnitiv inkişaf prosesinə təsir edən mühüm xarici amillərdən biri də təlimdir. A.Leontyevin və P.Qalperinin zəka fəaliyyətinin mərhələli formalaşması nəzəriyyəsinə görə, koqnitiv inkişafın əsas təkanverici qüvvəsi olan təlim, uşağın koqnitiv fəaliyyətini inkişaf etdirir. Gənc nəsil yeni və fərqli biliklərə açıq olduğu üçün onlarda koqnitiv inkişaf prosesi qeyri-sabit şəkildə (eniş və yüksəlişlərlə) irəliləyir (18-25 yaşarası) və müəyyən dövrdən sonra (26-35 yaşarası) tədricən sabitləşir və fərdi zəka fenomeni formalaşır. Sonrakı mərhələdə fərdin mühakimələri daha məntiqli və yetkin xarakter daşıyır (36-40 yaşarası). 40 yaşından sonra verbal zəka sürətlə inkişaf edir. Sonralar fərdin əldə etdiyi təcrübələr və peşə bağlılığı onda özünəməxsus fərdi zəka üsulunun meydana çıxmasına səbəb olur. Bu proses tədricən daha da dərinləşərək zəkanın kristallaşmasına, koqnitiv inkişaf prosesinin zəifləməsinə və zəkanın qapalı olmasına şərait yaradır [10, 67].

Göründüyü kimi, koqnitiv inkişaf prosesinin ən optimal mərhələsi 40 yaş ətrafında olur. Çünki ona kimi koqnitiv inkişaf prosesinin tərəqqisi, ondan sonra isə əksər hallarda tənəzzülü mərhələsi başlayır. Biz zaman və məkan müstəvisində hər şeyin dialektik qanunlar əsasında dəyişdiyini, biliyin nisbi xarakter daşıdığını nəzərə alsaq, koqnitiv inkişafı da bunların tərkib hissəsi kimi qəbul etməliyik.

Jan Piajenin nəzəriyyəsi sonrakı tədqiqatçılar tərəfindən tənqid olunmuşdur. Jan Piajenin hiss-mühərrik mərhələsində olan körpələrin (2 yaşadək) ətraf mühiti anlamaması ilə bağlı fikirlərinə qarşı Cin Mandler və onun tərəfdarları etiraz etdilər. Onlar apardıqları eksperimentlər əsasında təsdiq etdilər ki, hiss-mühərrik mərhələsində olan körpələr ətraf mühiti öz ehtiyacları çərçivəsində dəyərləndirmək qabiliyyətində olan zəka səviyyəsinə malikdirlər [1, 270-271]. Digər tədqiqatlar göstərdi ki, formal əməliyyatlar mərhələsi (11-15 yaşarası və daha yuxarı) istedadlı zəkalı uşaqlarda daha əvvəl üzə çıxdığı kimi, bir çox insanlarda məhdud qabiliyyətlər və mədəni mühitlə bağlı olaraq heç yetkinlik dövründə də üzə çıxmaya bilər. Bu baxımdan, Jan Piajenin nəzəriyyəsi koqnitiv inkişafın mütləq nəzəriyyəsi kimi qəbul edilə bilməz.

***Lev Vıqotskinin və digərlərinin koqnitiv inkişaf ilə bağlı görüşləri***

Koqnitiv inkişaf ilə bağlı sovet psixoloqu Lev Vıqotskinin öz yanaşmaları vardır. O, J. Piajenin baxışları ilə tanış olmuşdur. Lev Vıqotskiyə görə, koqnitiv inkişaf öyrənməkdən əvvəl deyil (Piajenin fikri), sonra gəlir. Körpənin eqosentrik nitq qabiliyyətinin sonradan sosial nitq vasitəsinə çevrildiyini və körpənin onun vasitəsilə sosial ünsiyyətə girdiyini irəli sürən Jan Piajenin əksinə olaraq Vıqotski bildirir ki, körpə doğuşdan sosial varlıq olduğu kimi, onun eqosentrik nitqi də sosial mənşəlidir. Yəni körpələr bu nitqi cəmiyyətdən mənimsəyir və cəmiyyətdə ünsiyyət yaratmaq üçün istifadə edirlər. Beləliklə, koqnitiv inkişaf fərddən cəmiyyətə deyil (Piaje), cəmiyyətdən fərdə (Vıqotski) doğru təkamül edir [5, 233-234].

Vıqotski koqnitiv inkişafın dilin inkişafı ilə bağlı olduğunu, dil və təfəkkürün bir hadisənin iki tərəfi olduğunu müdafiə edir. O yazır: "Dil, uşağın eşitdiyi xarici nitq ilə düşündüyü daxili nitqin birləşməsidir" [4, 45]. Vıqotski bir çox psixoloqların "təfəkkür dili deyil, dil təfəkkürü müəyyənləşdirir" tezisinə qarşı çıxaraq bildirir ki, körpə danışanaqədərki koqnitiv inkişaf mərhələsində düşünə bilirsə (bu eksperimentlərlə təsdiq olunur), dil və təfəkkürün mənşəyi eyni ola bilməz. Ona görə, dil və təfəkkürün mənşəyi fərqli olduğu kimi, onların inkişaf dinamikası da fərqlidir və onların dinamika xətləri bəzən bir-biri ilə kəsişsə də, onlar adətən bir-biri ilə kəsişmirlər. Təfəkkürün mənşəyi bioloji başlanğıc ilə, dilin mənşəyi sosial mühit ilə bağlıdır. Dil və təfəkkür mövcud anlayışlar üzərində kəsişəndə, onlar bir hadisənin iki tərəfi kimi ortaya çıxırlar. Yəni sosial fenomen olan dildə daxili nitq özünü ifadə edə bilir (cədvəl 1.1) [5, 45-46].

Cədvəl 1.1 Vıqotskinin dil nəzəriyyəsi

| **Mərhələlər** | **Funksiyalar** |
|---|---|
| Xarici sosial mərhələ (3 yaşadək) | Digər insanların davranışlarını idarə edir, sadə fikir və emosiyalar ifadə edir |
| Eqosentrik mərhələ (3-7 yaşarası) | Daxili və xarici nitq arasında körpü rolunu oynayır. Davranışların idarə olunmasına şərait yaradır. |
| Daxili nitq mərhələsi (7 və daha böyük) | Özü-özüylə danışmaq təfəkkürün idarə olunmasına şərait yaradır. Dil, bütün yüksək psixi proseslərdə iştirak edir. |

Jan Piajenin fundamental nəzəriyyəsinin bəzi məqamlarının tənqid olunması yeni alternativ nəzəriyyələrin meydana çıxmasına şərait yaratdı. Bu tənqidçilər arasında onun öz tələbələri və davamçıları ilə yanaşı, onun nəzəriyyəsinə alternativ nəzəriyyə yaratmaq istəyən araşdırmaçılar da vardır.

Neopiajenlərdən olan Demetriu Jan Piaje, Paskual-Leon, Keys kimi tədqiqatçıların araşdırmalarından yararlanaraq fərqli eksperimentlər əsasında onların koqnitiv inkişafda verbal və məkan parametrlərinin ümumi bir qanunauyğunluğa və mərhələlərə bağlı olması ilə əlaqədar irəli sürdükləri nəzəriyyələri təkzib etdi. Demetriu zəkanın inkişafının fərqli mərhələlərdən keçən və fərqli zaman xüsusiyyətlərinə malik yeddi sahəsini müəyyənləşdirdi. Onun gəldiyi nəticə ondan ibarətdir ki, hər bir sahədə zəka müəyyən səviyyə strukruna malikdir [6, 402-403].

Koqnitiv inkişaf ilə bağlı mühüm araşdırmalar aparan tədqiqatçılardan biri də Siqlerdir. O, uşaqların məsələ həllində istifadə etdikləri strategiyanın təhlilini apararaq, strategiyanın formalaşmasını təmin edən dörd qayda-səviyyə ortaya qoydu. Bu qaydalar əsasında müxtəlif yaş qrupları arasında eksperiment həyata keçirdi. Eksperiment nəticəsində məlum oldu ki, azyaşlı uşaqlar kütlə və məsafə barədə olan məlumatları eyni anda bir araya gətirərək balansı müəyyənləşdirməkdə çətinlik çəkirlər. Çünki onların yaddaşı zəif olduğu kimi, bilikləri də məhduddur. Lakin onlar balans şkalasını gördükdən sonra kütləni müəyyənləşdirməkdə çətinlik çəkmirlər. Bu eksperiment göstərdi ki, azyaşlı (5 yaşlı) uşaqlarda koqnitiv inkişaf prosesində mühüm problemlərdən biri yaddaşdır [2, 66-67].

Cerom Bruner L. Vıqotskinin koqnitiv inkişafın sosial həyatın və dilin təsiri altında meydana çıxdığını irəli sürən təliminə istinad edərək Piajenin koqnitiv inkişafla bağlı təlimini tənqid etdi. Cerom Brunerə görə, uşağın dünyanı dərk etmək istiqamətində koqnitiv inkişaf üsulları fəaliyyət, obrazlar və rəmzlərdir. İlk öncə uşaq gündəlik fəaliyyət nəticəsində dünyanı dərk edir və sonra dünya ona fəaliyyətinin fövqündə olan obrazlar şəklində təsvir olunur, növbəti mərhələdə fəaliyyət və obrazların dilə çevrilməsi prosesi başlayır. Piajedən fərqli olaraq o, koqnitiv inkişafı mərhələlərə bölmür. Onun təqdim etdiyi keçid prosesləri psixikada fərqli aspektlərdə öz əksini tapır:

1. *Fəaliyyət* – uşağın (1-2 yaşarası) təsəvvüründə əşya ilə eyniyyət təşkil edir. Yəni onun hissiyatında əşya ilə fəaliyyət arasında üzvi bağlılıq vardır. Lakin tədricən bu bağlılıq ortadan qalxır. Çünki onun hissiyyatında əşya obrazlar vasitəsilə dərk olunur və fəaliyyət bu obrazların əldə olunmasına yönəlir. Bu, fəaliyyətin obrazlardan ayrılmasına və müstəqil olmasına şərait yaradır.
2. *Obraz* – uşaqların əşyanın cəlbedici zahiri əlamətlərinin təsiri altında olduğu fenomendir. Bu bağlılıq tədricən azalmağa doğru gedir.
3. *Rəmz* - obrazlar üzərində formalaşan və nitqin inkişafı ilə tədricən anlayışlara keçid edən fenomendir [3, 122-123].

## Nəticə / *Conclusion*

Daxili koqnitiv potensial xarici amillərin təsiri ilə üzə çıxaraq inkişaf edir. Bu baxımdan, Jan Piajenin koqnitiv funksiyaların fitri və təcrübə ilə əldə edildiyini irəli sürən nativist və empirik nəzəriyyələri tamamilə təkzib etməsini məqbul hesab edə bilmərik. Çünki koqnitiv inkişaf prosesini yalnız birölçülü parametrlərlə müəyyənləşdirmək mümkün deyildir. Bu baxımdan, nativist və empirik nəzəriyyələrdə də müəyyən həqiqət payı vardır. Bunlardan biri də, genetik amillərlə bağlı olan fitri istedad fenomenidir. Onu, koqnitiv inkişaf prosesinin fərqli alternativ variantlarından biri kimi də dəyərləndirmək olar.

## Ədəbiyyat / *References*


1. Mandler J.M., Bauer P.J. The cradle of categorisation: Is the basic level basic? Cognitive Psychology, Vol. 23. 1988.
2. Siegler M. Knowing children: experiments in conversation and cognition. L: Lawrence Erlbaum Associates Publishers, 1991.
3. Bruner Dzk. Psikhologiya poznaniya. M.: Progress, 1977.

4. Vygotskiy L.S. Istoriya razvitiya vysshikh psikhicheskikh funktsiy. Razdel III. Psikhologiya razvitiya. Psikhologiya. M.: Aprel Press; Eksmo-Press, 2000.
5. Vygotskiy L. S. Izbrannyye psikhologicheskiye proizvedeniya. M., 1956. Kognitivnaya psikhologiya. Uchebnik dlya vuzov. Pod red. V. N.Druzhinina, D. V. Ushakova. M.: PER SE, 2002.
6. Krayg G. Psikhologiya razvitiya. SPb., 2000.
7. Razvitiye psikhofiziologicheskikh funktsiy vzroslykh lyudey (srednyaya vzroslost) Pod red. B.G. Ananyeva, Ye.I. Stepanovoy. M., 1977.
8. Solso R. Kognitivnaya psikhologiya. 6-ye izd. SPb.: Piter, 2006.
9. Stepanova E.I. Psikhologiya vzroslykh – osnova akmeologii. SPb., 1995.

## Факторы, влияющие на когнитивное развитие

**Телли Джаббарова**
Докторант Гянджинского государственного университета. Азербайджан.
E-mail: ziyacabbarli@mail.ru

**Резюме.** В статье рассматриваются факторы, влияющие на когнитивное развитие в процессе действия. В результате исследования было выявлено, что внутренний когнитивный потенциал развивается под воздействием внешних факторов. С этой точки зрения мы не можем согласиться с тем, что Жан-Пиаже полностью отвергает нативистские и эмпирические теории, которые предполагают, что когнитивные функции приобретаются добродетелью и опытом. Потому что процесс когнитивного развития не может быть определен только одномерными параметрами. Внешние факторы играют большую роль в реализации генетического потенциала. Интерес и стремление человека являются одними из наиболее важных факторов в регулировании и развитии процесса когнитивного развития. Среди внешних факторов, вербальное общение между родителями и детьми играет важную роль семье.
**Цель:** является выявление факторов, влияющих на когнитивное развитие в процессе действия.
**Методология :** состоит из теорий и экспериментов о взаимодействии когнитивных и эмоциональных факторов по эмоциональному интеллекту.
**Научная новизна:** внутренний познавательный потенциал развивается под воздействием внешних факторов.
**Ключевые слова:** когнитивный, эмоциональный, процесс самопознания, индивид, объект, субъект, личность.